UOT 75
https://doi.org/10.59849/2311-8482.2025.4.221

**RÜFƏT ƏHMƏDOV***

# AZƏRBAYCAN XALQ RƏQSLƏRİNİN İNKİŞAFINDA İFAÇILARIN ROLU

*Məqalədə Azərbaycan xalq rəqslərinin yaranmasında, toplanılmasında, öyrənilməsində, ümumiyyətlə, rəqs janrının tədqiqində Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Qara Qarayev, Fikrət Əmirov, Səid Rüstəmov, Əfrasiyab Bədəlbəyli, Zakir Bağırov, Sultan Hacıbəyov, Tofiq Quliyev, Məmmədsaleh İsmayılov, Bayram Həsənli kimi bəstəkar və musiqişünasların, Əhməd İsazadə, Kamal Həsənov kimi tədqiqatçıların böyük xidmətlərinin olmasından bəhs edilir. Qeyd edilir ki,* zəngin yaradıcılığı və uğurlu pedaqoji fəaliyyəti ilə seçilən, xalq rəqslərimizin mahir ifaçılarından olan Ələkbər Əsgərov, *İzzətəli Zülfüqarov, Əsgərəli Əsgərəliyev, Bəhruz Zeynalov, Nağı Maqsudov, Hacı Abutalıbov, Ağamirzə Mərdiyev və b.* xalq rəqslərimizin yaranmasında və inkişafında silinməz izlər qoymuşdur.

*Sonda əsaslandırılır ki, mənəvi sərvətimiz olan Azərbaycan xalq rəqsləri tariximizlə ayrılmaz surətdə bağlıdır və onun milli xüsusiyyətini, həm də həyat və məişətini özündə əks etdirir. Bu da ölkənin tarixində, mədəniyyətində rəqs sənətinin nə dərəcədə böyük əhəmiyyətə malik olduğunu göstərir.Bu baxımdan qədimliyi və zənginliyi ilə seçilən xalq rəqslərimizi araşdırmaq, öyrənmək, tədqiq etmək bu gün də aktualdır.*

***Açar sözlər**: folklor, xalq rəqsləri, yallı, qarmon, balaban, zurna*

## Giriş

Çox qədim və zəngin tarixə malikAzərbaycan musiqi folklorunun tərkib hissəsinə daxil olan əsas janrlardan biri də Azərbaycan rəqsləridir.Azərbaycan rəqsləri -Azərbaycana məxsus rəqs nümunələridir. Sadə və ibtidai xalq musiqi alətləri meydana gəlməzdən çox-çox əvvəl rəqs tamaşaçıların çəpik çalmaları ilə əldə edilən ritmik zərblərin mahiyyəti ilə Azərbaycan rəqsləri yaranıb. Rəqs sənətinin müxtəlif növləri və janrları öz mahiyyətini şifahi xalq ədəbiyyatının bir qolu olan xalq rəqslərindən götürüb. Belə ki, müxtəlif peşələrlə, hətta ovçuluqla məşğul olan tayfalar öz sehrli ayinlərini çeviklik, qıvraqlıq, insan gücünü nümayiş etdirən plastik hərəkətlərdən ibarət rəqslərlə həyata keçirirdilər. Eramızdan 2–3 min il əvvəl, tunc dövründə Azərbaycanda rəqs sənəti insanların məişətində, adət-ənənəsində müəyyən mövqe tutması tədqiqatlar nəticəsində məlum olub. Qobustan qayaüstü rəsmlərində əksini tapmış rəqs səhnələri Azərbaycan xalq rəqslərinin çox qədim tarixi malik olmasının əyani sübutudur (5, s.23) .

Qeyd etdiyimiz kimi xalqın iqtisadi, ictimai və mənəvi həyatında meydana gələn rəqs sənəti dəyişikliklərə uğrayaraq yeni məzmun və istifadə vasitələri əldə edir.

Azərbaycan xalq musiqisinin, folklorunun öyrənilməsində,ümumiyyətlə, rəqs janrının tədqiqində ilk təşəbbüs dahi bəstəkarımız Üzeyir Hacıbəyli tərəfindən irəli sürülmüşdür. Ü.Hacıbəyli Qori Müəllimlər Seminariyasında oxuduğu illərdə folklor musiqi nömrələrini öyrənmiş, toplamış və nota köçürmüşdür.

Aparılan tədqiqatlardan, elmi yazılardan və nəşr olunmuş məcmuələrdən məlum olur ki, Azərbaycan xalq rəqslərinin toplanılmasında və öyrənilməsində Müslüm Maqomayev, Qara Qarayev, Fikrət Əmirov, Səid Rüstəmov, Əfrasiyab Bədəlbəyli, Zakir Bağırov, Sultan Hacıbəyov, Tofiq Quliyev, Məmmədsaleh İsmayılov, Bayram Həsənli, Rauf Bəhmənli kimi bəstəkar və musiqişünasların, Əhməd İsazadə, Kamal Həsənov kimi tədqiqatçıların böyük xidmətləri olmuşdur.

## Əsas hissə

Azərbaycan xalq rəqslərinin yaranmasında və inkişafında silinməz izlər qoymuş, zəngin yaradıcılığı və uğurlu pedaqoji fəaliyyəti ilə seçilən sənətkarlarımız olmuşdur ki, onlar eşidilməmiş və ya az səslənən rəqs havalarını tapıb öyrənmələri, bir musiqiçi kimi onları ifa etmələri bu janrın öyrənilməsinə təkan verdi. Belə ki, xalq rəqslərimizin mahir ifaçılarından Ələkbər Əsgərov, Əşrəf Əşrəfov, Şəmsi İmanov, Məmmədağa Ağayev, Teyyub Dəmirov, Həsən Məhərrəmov, Avtandil İsrafilov, Vəli Qədimov və b. ifalarında xalq rəqslərimizə qulaq asmaq bu janrın elmi cəhətdən araşdırılması və tədqiq olunması kimi vacib amala çevrildi.

Azərbaycan ifaçılıq sənətini zirvələrə ucaltan, öz adını musiqi tariximizə qızıl hərflərlə yazmış nəfəs alətlərinin mahir ifaçısı Ələkbər Əsgərovun adı xüsusilə vurğulanmalıdır. O, Azərbaycan xalq rəqslərinin inkişafında öz yeri və öz yolu olan sənətkarlarımızdandır.

Klarnetdə, zurnada, balabanda, tütəkdə və neydə professional ifası ilə Azərbaycanda tanınan və sevilən Ələkbər Əsgərov rəqsləri ifa edərkən, rəqsin mənsub olduğu muğamın müxtəlif istinad pərdələrinə modulyasiyalar edərək, həmin muğamdan kiçik ftaqmentləri də bu rəqslərdə ifa edərdi.İmprovizəli çalğısı ilə Azərbaycanda yeni bir ifa üslubu yaradan Ələkbər Əsgərovun ifa etdiyi "Vağzalı", "Uzundərə", "Mirzəyi", "Qazağı", "Keçiməməsi", "Şalaxo", "Qaytağı" və başqa rəqs havaları bu gün də gənc musiqiçilər üçün bir məktəbdir.

Azərbaycan rəqs musiqi tarixini araşdırdırarkən nəfəs alətlərinin məşhur ifaçısı İzzətəli Zülfüqarovun yaradıcılığına nəzər salmağı özümüzə borc bildik. Belə ki, onun zurna və balaban alətində ifasında 30 rəqs musiqisi lentə yazılmış və bu oyun havaları haqqında maraqlı məlumatlar əldə olunmuşdu. "Kəsmə", "Bənövşə", "Xurcun", "Bağdagülü", "Şamaxı", "Alma gülü", "Yasəməni", "Nilufəri", Gəlin havası", "Narıncı", "Əntiqə", "Məxməri" və başqa rəqslər nota köçürülmüşdür.

Xalq arasında tanınmış sənətkarlardan olan məşhur qarmon ifaçısı Əsgərəli Əsgərəliyev milli rəqslərimizin dərin bilicilərindən idi. O, hələ cavan yaşlarından müxtəif rəqs kollektivlərində çalışmışdır. Onun ifasında 83 xalq rəqsinin melodiyası nota yazılmışdır. Bu rəqslərdən "Azərbaycan", "İnnabı", "Lalə", "Tərəkəmə", "Daçını", "Xançobanı", "Uzundərə", "Şalaxo", Turacı", "Qazağı", "Yüz biri" və s. göstərmək olar.

Vurğulamaq yerinə düşər ki, Əli Kərimovun (balaban ustadı, zurnaçı) yetirmələrindən sayılan Bəhruz Zeynalov nəfəsli alətlərin mahir ifaçılarından idi. O, 1966-ci ildə Radio və Televiziya şirkətinin nəzdində fəaliyyət göstərən, tanınmış dirijor, bəstəkar Nəriman Əzimovun rəhbərlik etdiyi S.Rüstəmov adına "Xalq çalğı alətləri orkestri"ndə uzun illər çalışmışdır. Bəhruz Zeynalovun ifasında "Cəngi", "Novruzu", "Qazağı", "Şəki", "Durna", "Mirzəyi", "Çobanlar", "Qədim Qaytağı", "Naxçıvanı", "Maralı", "Əndican", "Bəsti", "Sabirabadı", "Şubanı", "Ənzəli" və s. oyun havaları lentə yazılmışdır.

Qeyd edək ki, Azərbaycan rəqs sənətinin yaranmasını, tarixi köklərini tədqiq edərkən "yallı" rəqs növünün araşdırması da çox vacibdir. Naxçıvanda (Şərur rayonun Çərçiboğan kəndində) nəfəs alətlərinin mahir ifaçılarından olan Nağı Maqsudov yallı havalarının musiqisini dərindən bilən ustad sənətkarlardandır. 25 yallı musiqisi Nağı Maqsudovun aydın və səlis ifasında lentə yazılmışdı. Bu yallılardan "Kürdün ağırı", "İkiayaq", "Ürfanı", "Tənzərə", "Ay lələ", "Çınqı-çınqı", "Dönə", "Çöpü", "Köçəri", "İrəvan" "Tello", "Qazı-qazı", "Tirmə şal", "Zülfanı" və s. adlarını qeyd edə bilərik (1, s.17) .

Onu da qeyd etmək yerinə düşər ki, Nağı Maqsudovun oğlu, istedadlı qarmon ifaçısı Zahir Maqsudovun ifasında "Qənimo", "Poppuri", ""Xələfi", "Kürdüstanı", "Göy çəməni", "Şərur" yallıları lentə yazılıb.

Zurna və balaban ifaçısı Hacı Abutalıbov (Ordubad rayonunun Tivi kəndində anadan olub) bir çox kallektivdə çalışmış, Yallı festifalında 1-ci yerin qalibi olmuş (1951), müxtəlif festifallarda iştirak etmişdir (1960-cı illərə qədər). Onun ifasında "Qara Pir" , "Köçəri", "Tənzərə", "Delasoru", "Gəmiqaya", "Ordubad", "Şəranı", "Güleynare, "Leyli xanı" yallıları, "Qaleyi", "Siyaqutu", eləcə də "Əlincə qalası" adlı cəngi rəqsi lentə yazılmışdır.

Azərbaycan ifaçılıq sənətində özünəməxsus üsuba malik, nəfəs alətlərinin ustad sənətkarı Həbibullah Cəfərovun yetirmələrindən biri Ağamirzə Mərdiyevdir.Onun ifasında “Şəki”, “Dəhnə”, “Havarı”, “Zoğalı”, Avayır”, “Xəkəndaz” yallıları və “Gəlin havası” (Zaqatalada yaranıb) rəqsi lentə alınmışdır.

Yeri gəlmişkən qeyd edək ki, Həbibullah Cəfərov məktəbinin davamçılarından biri də nəvəsi Laçın Bayramovdur. “Daş bulağı”, “Dərviş baba” yallıları, “Çoban kolu”, “Mürəkkəbi” rəqsləri onun ifasında lentə yazılmışdır.

Həbibullah Cəfərovun yetirmələrindən biri də qocaman zurna ifaçısı Ağasəf Musayev olmuşdur. “Dal Dağıstanı”, “Oravan”, “Köhnə Qaradağlı”, “Üç barmaq”, “Yeqara” yallıları,

"Moruğu", "Xan yaylağı", "Zamagom", "Kirkirə", "Kəkliyi", "Ekspress", "Cüt-cüt", "Qıpçaq dərəsi", "Tramvay", "Pəri qala", "Qəhrəmanı", "Gəlin havası" rəqsləri onun aydın və səlis ifasında lentə yazılmışdır.

Zurna ifaçılığından danışarkən Həbibullah Cəfərov məktəbinin zirvəsi sayılan Ələsər Rəhimovun (Azərbaycanda Şəkili Ələfsər kimi tanınmışdır) adını qeyd etməyi özümüzə borc bildik. O, çox güclü tembrə, iti texnikaya, improvizəli, virtuoz ifaya malik olan bir el sənətkarı idi. Ələsər Rəhimovun adını hər zaman zirvələrdə saxlayan tələbəsi İlham İbrahimxəlilov olmuşdur. Onun özü də professional zurna ifaçısıdır. "Zopu", "Tala", "Ovçular" (Naxçıvanda "Şərur" yallısı kimi tanınır) yallıları, "Nar çiçəyi", "Köndələn", "Çapağan" rəqsləri onun ifasında lentə yazılmışdır.

Ustad Əsgərəli Əsgərəliyevin davamçılarından olan qarmon ifaçısı Eldar Əliyev adını qeyd etməyimiz yerinə düşər. O, öz ifası ilə xalqın rəğbətini qazanmış istedadlı qarmon ifaçılarındandır.Eldar Əliyevin ifasında çoxlu sayda rəqslər, eyni zamanda ilk dəfə nota alınan "İnci", "Yarış", "İndiko" (Qaval" rəqsi"), "Nəlbəki", ""Xəzəri", "Arzu" rəqsləri də lentə yazılmışdır.

Zurna və balabanın mahir ifaçılarından biri də Bəybala Abdulovdur (İsmayıllı rayonunun Tircan kənd sakini). Ustad aşıqlardan bu sənətin zirvəsinə yiyələnən Bəybala Abdulovun ifasında tanış olan rəqs nümunələri ilə yanaşı, "İncə gülü", "Gülxətmi", "Kəndirbaz", "Sarı çiçək", "Dəvəçi baharı", "Mehmanı" rəqsləri də lentə yazılmışdır.

Əli Kərimov məktəbinin davamçılarından biri də Rasim Ələsgərovdur. O, nəfəs alətlərinin mahir ifaçısıdır. Tədqiqatçı Rauf Bəhmənli Rasim Ələsgərov haqqında "Azərbaycan qədim rəqs havaları" adlı kitabında yazırdı: "1947-ci ildə Şamaxının Məlhəm kəndində anadan olmuş sənətçinin mükəmməl ifasında ilk dəfə eşitdiyimiz "Xırdaca", "Muğam bulağı" və "Zümrüdü" rəqs havaları yazılmış və sonradan notlaşdırılaraq məcmuəyə daxil edilmişdir" (1, s.26).

**Nəticə**

Sonda onu qeyd edək ki, qədim tarixə malik, mənəvi sərvətimiz olan Azərbaycan xalq rəqsləri tariximizlə ayrılmaz surətdə bağlıdır və onun milli xüsusiyyətini, həm də həyat və məişətini özündə əks etdirir. Bu da ölkənin tarixində, mədəniyyətində rəqs sənətinin nə dərəcədə böyük əhəmiyyətə malik olduğunu göstərir. Bu baxımdan qədimliyi və zənginliyi ilə seçilən xalq rəqslərimizi araşdırmaq, öyrənmək, tədqiq etmək bu gün də aktualdır.

## ƏDƏBİYYAT

1. Bəhmənli R.B. Azərbaycan qədim rəqs havaları. "Şərq-Qərb" ASC-nin mətbəəsi.Bakı 2021, 666 s.
2. Həsənov K.N.Qədim Azərbaycan xalq rəqsləri. Baki, "İşıq", 1983, 59 s.
3. Həsənov K.N. Azərbaycan qədim folklor rəqsləri. Baki, "İşıq", 1988, 127 s.
4. Hüseynli B.X. "Azərbaycan instrumental xalq rəqs musiqisi". "Azərbaycan xalq musiqisi" məcm., s.168-197. Bakı, "Elm", 1981.
5. Rüstəmov C.N. Qobustan dünyası. Bakı, ADN, 1994, 174 s.

***Naxçıvan Dövlət Universiteti***

**Rufat Ahmadov**

## THE ROLE OF PERFORMERS IN THE DEVELOPMENT OF AZERBAIJAN FOLK DANCES

The article discusses the great contributions of composers and musicologists such as Uzeyir Hajibeyli, Muslim Magomayev, Gara Garayev, Fikret Amirov, Said Rustamov, Afrasiyab Badalbeyli, Zakir Bagirov, Sultan Hajibeyov, Tofig Guliyev, Mammadsaleh Ismayilov, Bayram

Hasanli, and researchers such as Ahmed Isazadeh and Kamal Hasanov to the creation, collection, and study of Azerbaijani folk dances, as well as to the study of the dance genre in general. It is noted that Alakbar Asgarov, İzzetali Zulfugarov, Asgarali Asgaraliyev, Bahruz Zeynalov, Naghi Magsudov, Haji Abutalibov, Agamirza Mardiyev, and others, distinguished by their rich creativity and successful pedagogical activity, are among the skilled performers of our folk dances. has left an indelible mark on the creation and development of our folk dances.

Finally, it is argued that Azerbaijani folk dances, which are our spiritual wealth, are inextricably linked with our history and reflect its national character, as well as life and everyday life. This shows how important the art of dance is in the history and culture of the country. From this point of view, it is still relevant to research, study, and study our folk dances, which are distinguished by their antiquity and richness.

**Keywords:** *folklore, folk dances, yalli, garmon, balaban, zurna*

**Руфат Ахмадов**

**РОЛЬ ИСПОЛНИТЕЛЕЙ В РАЗВИТИИ**
**АЗЕРБАЙДЖАНСКИХ НАРОДНЫХ ТАНЦЕВ**

В статье рассматривается большой вклад таких композиторов и музыковедов, как Узеир Гаджибейли, Муслим Магомаев, Гара Гараев, Фикрет Амиров, Саид Рустамов, Афрасияб Бадалбейли, Закир Багиров, Султан Гаджибеков, Тофик Гулиев, Мамедсалех Исмаилов, Байрам Гасанлы, а также таких исследователей, как Ахмед Исазаде и Кямал Гасанов, в создание, сбор и изучение азербайджанских народных танцев, а также в изучение танцевального жанра в целом. Отмечено, что среди искусных исполнителей наших народных танцев есть Алекпер Аскеров, Иззатали Зульфугаров, Асгарали Асгаралиев, Бахруз Зейналов, Наги Магсудов, Гаджи Абуталыбов, Агамирза Мардиев и другие, которые отличаются богатым творческим потенциалом и успешной педагогической деятельностью. оставил неизгладимый след в создании и развитии наших народных танцев.

В заключение утверждается, что азербайджанские народные танцы, являющиеся нашим духовным богатством, неразрывно связаны с нашей историей и отражают ее национальный характер, а также быт и образ жизни. Это показывает, насколько важно искусство танца в истории и культуре страны. С этой точки зрения исследование, изучение и изучение наших народных танцев, отличающихся своей древностью и богатством, актуально и сегодня.

**Ключевые слова:** *фольклор, народные танцы, яллы, баян, балабан, зурна.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 11.10.2025**
**Son daxilolma tarixi:28.11.2025**